# Vətən sevgisinin milliyyəti olmur

## Azərbaycanın rusəsilli şəhidi Denis Pronin-Əliyev hər zaman özünü bu torpağın bir parçası hiss edirdi

*Qızı Alinanı sonuncu dəfə möhkəm bağrına basaraq, ətrini sinəsinə çəkmişdi. Gözləri dolmuş, ürəyində bir narahatlıq hiss etmişdi, sanki bir daha övladını görməyəcəyi, balasına sarıla bilməyəcəyi ürəyinə dammışdı.*

*Bir neçə dəqiqədən sonra getdiyi müqəddəs yoldan dönməyi bir an belə ağlına gətirməmişdi. Bu dünyada hər kəsdən, hər nəsnədən, canından da çox sevdiyi doğma Vətən onu çağırırdı...*

*Elə buna görə də 32 yaşlı rusəsilli Denis Pronin-Əliyev tərəddüd etmədən 2020-ci ilin sentyabrında könüllü olaraq Azərbaycanın igid oğullarına qoşulub Qarabağın harayına hay vermiş, düşmən tapdağında inləyən yaralı yurdlarımızı azadlığına qovuşdurmağa tələsmişdi.*

*And içmişdi ki, getdiyi bu müqəddəs yolda öldü var, döndü yox.*







Ailəsi ilə halallaşıb qapıdan çıxanda isə Denisin Alinaya son sözü bu olmuşdu: "Tezliklə qələbə ilə qayıdacağam və biz birlikdə azad torpaqlarımıza, Şuşaya gəzməyə gedəcəyik.

Əsrlər öncə "sülh istəyirsənsə, müharibəyə hazır ol" ifadəsini işlədən qədim Roma tarixçisi Korneli Nepot yəqin ki, XXI əsrdə yaşasaydı, bunu Azərbaycan xalqına aid edərdi.

İllər idi ki, xalqımız düşmənin işğalçılıq siyasəti, soyqırımları ilə üz-üzə idi. Bir qərinəyə yaxın idi ki, torpaqlarımız işğal altında inləyir, yüzminlərlə vətəndaşımız qaçqın, köçkün vəziyyətində yaşayırdı. Buna baxmayaraq, Azərbaycan hər zaman sülhün tərəfdarı idi və münaqişənin qan-qadasız həllinə çalışırdı. Amma heyif ki, düşmənin mənfur xisləti bu yoldan çox uzaq idi. Hər zaman sərhədlərimizi pozmağa cəhd edir, hərbi və mülki əhalimizə qarşı təxribatlar törədirdilər.

Lakin ötən il sentyabrın 27-də düşmən əl atdığı növbəti təxribatla səbrimizi daşırdı. Azərbaycanın şanlı ordusu cəmi 44 gün ərzində işğalçıları qarşısında diz çökdürdü, haqq savaşımız zəfərlə sonlandı. Bu qələbəni bizə igid hərbçilərimiz, vətəni canlarından çox sevən və onun uğrunda ölümə belə getməyə hazır olan cəsur oğullarımız qazandırdı.

Doğma vətəni Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçərək qəhrəmancasına şəhadətə ucalan igidlərimizdən biri də rusəsilli Denis Pronin-Əliyevdir.

Vətən müharibəmizin qələbə ilə başa çatmasının bir illiyini yaşadığımız bu günlərdə qəhrəman şəhidimiz Denisin ailəsinə baş çəkdik.

### Qonşular anasına kiçik Denisin gələcəkdə tanınan biri olacağını deyərdilər

Denis Pronin-Əliyev 26 may 1989-cu ildə Bakı şəhərində anadan olub. Nənə və babası II Dünya müharibəsindən sonra Azərbaycana gələrək burada məskunlaşıblar. Denisin valideynləri Bakıda dünyaya gəlib.

Denisin uşaqlıq illəri maddi ehtiyac içində keçib. Orta təhsilini Tahir Bağırov adına 59 nömrəli tam orta məktəbdə alan Denis 9-cu sinfi bitirdikdən sonra işləmək məcburiyyətində olduğundan təhsilini davam etdirə bilməyib. Ailədə 4 övladın ən kiçiyi idi Denis. Atası Aleksandr 2014-cü ildə vəfat edib, anası Valentina isə 2017-ci ildə xərçəng xəstəliyindən dünyasını dəyişib.

Denis anasına çox bağlı olub. Anasının bu dəhşətli xəstəliklə mübarizə aparmasına hər vəchlə kömək etməyə çalışıb. Hər zaman tanışlar, qonşular anasına kiçik Denisin gələcəkdə tanınan biri olacağını deyərdilər. Denis yeniyetmə yaşlarından taleyin keşməkeşləri ilə qarşılaşsa da, heç zaman nikbinliyini itirmir, şən, zarafatcıl insan olmağı bacarırdı.

18 yaşı olanda Gəncənin "N" saylı hərbi hissəsində hərbi xidmətə başlayan Denis xidmətini bitirdikdən sonra Bakıya qayıdaraq müxtəlif sahələrdə işləyib.

Denisin həyatında yeni bir səhifə isə Aynurə Əliyeva ilə təsadüfi tanışlıq nəticəsində başlayıb. 2011-ci ildə gözəl evlilik həyatı quran Denisin bu izdivacdan bir qız uşağı dünyaya gəlib.

Aynurə xanım 145 nörməli tam orta məktəbdə ibtidai sinif müəllimidir. O, Denislə tanışlığını həyatının ən əvəzolunmaz anı adlandırır, qeyd edir ki, həyat yoldaşı hər zaman özünü bu torpağın bir parçası hiss edirdi. Hətta Azərbaycan vətəndaşı kimi rəsmiyyət daşımaq üçün xanımının soyadını da götürərək, bütün sənədlərdə bu soyadı istifadə edirdi. Denis milliyyətcə rus olmağına baxmayaraq, Azərbaycan dilini səlis bilir, şirin Bakı ləhcəsində danışırdı.

### Şəhadətindən bir gün əvvəl zəng vurub qızının ad gününü təbrik edir

Denis daim Qarabağın Azərbaycana qayıtmasını, əzəli torpaqlarımızın bütövlüyünü istəyirdi. Lakin heç zaman düşünməzdi ki, bu tarixi hadisədə onun da payı olacaq.

2020-ci ilin sentyabrında Denis ehtiyatda olan əsgər kimi tərəddüd etmədən könüllü olaraq əvvəlcə təlimə getmiş, sonra isə torpaqlarımızın azad olunması uğrunda ön cəbhədə döyüşmüşdü.

Aynurə xanım deyir ki, Denis təlimə gedəndə çağırıldığı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarəsi düz onun işinin yanında idi: "Məktəbdə idim. Həmin vaxt Denisdən zəng gəldi. Mənə dedi ki, gəl aşağı, səninlə danışacağım məsələ var. Orada öyrəndim ki, o, Vətən uğrunda döyüşməyə gedir..."

D.Pronin üçün ailə həmişə ilk pillədə dayanırdı. Həyatındakı ən xoşbəxt gün isə qızı Alinanın dünyaya gəldiyi gün idi. O, qızına, qızı da ona çox bağlıydı. Alinanı məktəbə özü aparar, bütün qayğıları ilə məşğul olardı. Uşaqlıqda yaşamadığı, görmədiyi günləri Alinaya bəxş etmək istəyirdi. Özünün oyuncaqları olmadığı üçün Alinaya çoxlu oyuncaqlar alardı. Məhz elə son dəfə də qızının ad günündən bir gün əvvəl - 2020-ci ilin 6 oktyabrında zəng etmişdi...

Aynurə xanım: "Zəng edən kimi Alinanı təbrik etdi, mənə dedi ki, ona tort və hədiyyə alım. Təhlükəli mövqedə olduqlarından bundan sonra zəng etməyinin mümkünsüz olacağını deyib sağollaşdı..."

Onlar bir daha Denisin səsini eşitmədilər...

Oktyabr ayı ailənin ən sevincli və ən kədərli ayıdır. Aynurə ilə Denisin tanışlığı və Alinanın doğumu bu ayda olmuşdu... Amma elə bu qaşqabaqlı payız ayında da Denisi əbədi itirdilər...

Denis Pronin-Əliyev 7 oktyabr 2020-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə ağır yaralanaraq həyatını itirib. Bir gün sonra isə nəşi Bakıya gətirilib.

### İndi hər kəs onun qəhrəmanlıqları haqqında fəxarətlə danışır

Denis Pronin-Əliyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidentinin sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Bu ilin 27 oktyabrında isə oxuduğu 59 nömrəli məktəbdə xatirəsinə həsr olunmuş memorial açılıb.

59 nömrəli tam orta məktəbin direktor müavini İradə Eminova Denisi istər müəllim, istərsə də şagird kollektivi ilə mehriban davranan, dərslərində də çalışqan biri kimi xarakterizə edir. O qeyd edir ki, Denis bacarıqlı və aktiv şagird kimi həmişə seçilmiş, daim məktəbin tədbirlərində fəal iştirak etmişdir.

Vətən müharibəsi şəhidinin biologiya müəllimi Aidə Əhmədova isə bildirir ki, Denis dərslərə xüsusi diqqətlə hazırlaşardı. Biologiya fənninə böyük marağı olduğundan verilən tapşırıqları bacarıqla yerinə yetirərdi: "Dəftərləri o qədər səliqəli olardı ki, dərs ilinin sonunda mən Denisdən dəftərlərini götürərək digər siniflərə nümunə göstərmək üçün özümdə saxlayardım".

Öyrəndik ki, ailənin sosial həyatı ilə bağlı məsələlər dövlətin diqqətindədir. Şəhidin evi "Paşa Holdinq" tərəfindən təmir olunub, "YAŞAT Fondu"nun nümayəndələri ailəni ziyarət ediblər.

Aynurə xanım deyir ki, Denis elə bil harasa tələsirdi və hər şeyi tez yerinə yetirmək istəyirdi: "Bir dəfə söhbət edəndə ona dedim ki, hələ bizim çox məqsədimiz var. Sən niyə bu qədər tələsirsən, biz hamısını bir-bir gerçəkləşdirəcəyik. O isə mənə dedi ki, mən çox yaşamayacağam, yaşadığım müddətdə yoluna qoymalı olduğum məsələləri tez həll etməliyəm".

İndi bütün Azərbaycan Denisi, bu qəhrəman rus balasını tanıyır, onun igidlikləri haqqında fəxarətlə danışır. Qonşuları Denislə bir küçədə yaşadıqları üçün qürur duyur, oxuduğu məktəbin müəllim, şagird kollektivi onunla fəxr edir.

Bəli, Denis ömrünün ən gözəl çağında döyüşə yollandı. Doğulub, böyüyüb boya-başa çatdığı doğma torpaq uğrunda canını qurban verdi. O, şərəfli anın cəsur yolçusu idi.

***Aydan XƏLİLOVA,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 2 noyabr.- S.10.